## «Qobustan toplusu - 50”

# ÖLMƏZ SƏNƏTÇİLƏR HAQQINDA YENİ KİTAB

Ötən ilin dekabr ayında “Qobustan”-dərgisinin əlli yaşı tamam oldu və gözləndiyi kimi, nəşrin yubileyinə həsr olunmuş səmimi bir tədbir keçirildi. İştirakçılar nəşrin Xalq yazıçısı Anarın, ətrafına topladığı gənc,həm də istedadlı qələm sahiblərinə verdiyi düzgün istiqamət, yaratdığı əqidə və məslək birliyi sayəsində çətin yollardan inamla keçərək, bu günümüzə gəlib çatdığının şahidinə çevrildilər. “Qobustan”ın heç də asan keçməmiş günləri xatirələrdə bir daha çözüldü...

Mən isə Azərbaycanın mədəni həyatında özünəməxsus, eyni zamanda yeganə olan “Qobustan”ın personajlarını kitabda əbədiləşdirilmiş variantından bəzi qeydlərimi təqdim etmək istərdim. Söhbət bu dərgidə 47 il işləmiş Esmira Nəzərlinin qələmə aldığı və doğma jurnalın yubilleyinə həsr etdiyi “Kim deyir ağlamır kişilər...” kitabından gedir.

“Qobustan” jurnalının şöbə müdiri Esmira Nəzərlinin bir neçə il əvvəl öz jurnalı üçün yazdığı (...) sənət adamı haqqında oçerklərindən ibarət “İncəsənət inciləri” kitabı oxuculara yaxşı tanışdır. İndi isə onun daha 20 sənət adamının bal dadmayan sənət və ömür yoluna işıq saldığı oçerkləri dərginin 50 illiyinə çox yerinə düşən bir ərməğan kimi göründü.

Oradan başlayım ki, toplunun özünəməxsusluğu, dili, üslubu, fikirlərin ifadə tərzi barədə çox yazılıb,çox deyilib və bu yaradıcı mühitdə həm şəxsiyyət, həm də bir qələm sahibi kimi formalaşmış əməkdaşın yazdıqları da ayrı cür ola bilməzdi: hər oçerkin qəhrəmanı öz qiyafəsində, düşüncəsində, fərdi yaradıcılıq çığırında təqdim olunub.

Esmira xanımın qələmə aldığı bu kitabında Azərbaycanın teatr və musiqi tarixində silinməz izlər qoymuş şəxsiyyətlərin, unudulmaz insanların bizi düşündürən, sevindirən və kədərləndirən həyat salnamələri öz əksini tapıb. Onların həyatı insana dərindən düşünməyi, ötən hər günün, hər saatın qədrini bilməyi tövsiyə edir.

Xalq artisti Səyavuş Aslan tamaşaçılara xoş əhval-ruhiyyə,gülüş,sevinc bəxş etdiyi halda, aktyorun kədərli anlarında ağladığının da şahidi olmuşuq. Onun həyat hekayəsini “Axı o, aktyordur...” adlı yazısında müəllif yazır: “Kim deyir ağlamır kişilər?! Nə qədər dözsələr də, yumruqlarını düyünləyib gözyaşlarını udsalar da, ürək göynədən hisslər burulğanından çıxa bilmirlər müəyyən məqamda.”

Xalq artisti, bir göz qırpımında həyat yoldaşını, tanınmış aktyor və radio diktoru Yusif Muxtarovu itirmiş Amaliya Pənahovanın Yusifsiz həyatından bəhs edən “Ruhlar qovuşanda” adlı musahibədə xoşbəxt ailə ocağını tərk etmiş insanın itkisini yaşamağa məcbur olan Amaliya xanım bunun üçün insandan möhkəm iradə tələb olunduğunu söyləyir.Müəllif əminliyini bildirərək yazır ki, güclü xarakterlər: Natəvan, Məhsəti, Tomiris, Medeya obrazlarını yaradan bir sənətkar özünü toplayacaq, hər bir işin öhdəsindən gələcək! Məqalədə Yusif Muxtarovun təhsilindən, M.Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun “Dram və Kino aktyorluğu” fakültəsində ikinci təhsilindən, 20 Yanvar qırğını zamanı onun əsl Vətən oğlu kimi gördüyü xeyirxah əməllərindən bəhs olunur.Onun maneələrə rast gələn, yazıldıqdan 12 il sonra işıq üzü görmüş “Efirin göz yaşları” şəhidlərin ruhuna ehtiram idi. Gözəl insan Yusif Muxtarov həyat yoldaşı Amaliya Pənahovanın öz sənətini dəlicəsinə sevdiyini görürdü və bunu dəyərləndirirdi.

“Xeyirxahlar arasında” adlı bir aktyorun həyat hekayəsi Xalq artisti, “Humay”, “Qızıl Dərviş” mükafatları laureatı Arif Quliyevi sevənlərə, onun pərəstişkarlarına artıq məlum olan hadisə ilə başlayır. Onu oxuduqda sevimli müəllimim, ədəbiyyatşünas alim Mir Cəlal Paşayevin nürani surəti, auditoriyada ahəstə yerişi gözümün önünə gəldi. Yadımdadır,Salam Qədirzadənin “Sarmaşıqlı aynabənd” romanını kurs işi kimi hazırlamışdım. Oxudum, bəyəndi və məsləhət üçün dedi: “Yaxşıdır, amma hisslərivin üstünə su səp.” (Gənclik həyəcanı ilə yazılmışdı.)

Mir Cəlal müəllim bir gün kimsəsiz, internatda böyümüş, istedadlı gəncin-Arif Quliyevin həyat yoluna,sənətinə elə nur bəxş etdi ki, bu nur indi də tükənmir.




Sevimli aktyorumuz ən çətin günlərində ona əsl atalıq qayğısı göstərmiş Mir Cəlal Paşayevi, şair Tofiq Bayramı həmişə minnətdarlıqla xatırlayır. Hər ikisinin qəbri nurla dolsun!

“Əsl kişi - əyilməz insan, nəhəng aktyor” xatirə-yazısında müəllif, gözəl olduğu üçün Yusif peyğəmbərin adı qoyulan: Aydın, Oqtay, Balaş, Vaqif, Fərhad, Fəxrəddin, Gəray bəy, Ovod, nəhayət “Nəsimi” filmində Əmir Teymur (Teymurləng) rolunu əzəmətilə yaratmış Yusif Vəliyev haqqında həyat yoldaşı, Əməkdar artist Zemfira xanımın xatirələrini sözlə “çəkib”. Yusif Vəliyev Teymurləng obrazım haqqında deyirmiş: “Tarixi şəxsiyyətlərin obrazını,ümumiyyətlə, xarakterik rollar yaratmağı sevirəm. Bu baxımdan “Nəsimi” filmi çəkilərkən Teymurləng obrazı mənə həvalə olunanda çox sevindim.Və bu zalım qəsbkarın mənəviyyatını, həyat amalını, hətta daxili məziyyətlərini belə açmağa, tamaşaçılara tanıtmağa çalışdım.”

Müsahibədə aktyorun həyat yoldaşı onun mərd, məğrur, ikiüzlülükdən uzaq,-düzlüyü sevən xarakterliinsan olduğu barədə fəxrlə danışıb.

“Hər kəsin öz qisməti”. Xalq artisti, unudulmaz obrazlar yaratmış Möhsün Sənaninin qızı ilə müsahibə belə adlanır. Aktyorun ailədə, həmkarları ilə münasibətində yaddaqalan anları əks etdirən bu müsahibə Möhsün Sənaninin dram əsərlərinə, tamaşaçılara yaradıcı insan olaraq yanaşmasını diqqətə çatdırır. O, rollarını improvizə ilə oynayır,onlara yeni çalar,yeni həyat verirdi. İslam Səfərlinin “Göz həkimi” tamaşasında Həsənağa surəti məhz Möhsün Sənaninin əsərdə,müəllifinin məmnuniyyətlə razılaşdığı dəyişikliklərlə sevimli,duzlu, nəğməli bir surət kimi yaddaşlardan silinmir. Müsahibədə Xalq artisti Möhsün Sənaninin 60 illik yubileyində iştirak etmiş Azərbaycan incəsətinin korifey sənətkarları da xatırlanır.

Esmira xanım vaxtilə Xalq artisti, Azərbaycan estrada janrının gözəl ifaçısı, onun yaddaqalan simalarından Mirzə Babayevlə apardığı müsahibəsini ifa etdiyi məşhur “Kimlər gədi, kimlər getdi” mahnısının ilk misrası ilə adlandırıb. Burada müğənni-aktyorun həyat eşqilə dolu günləri göz önündə canlandırılır. Özünəməxsus ifa tərzi, səsi olan Mirzə Babayev xatirələrdə bu mahnılarla yaşayır: ”Halıma yanan gərək, səsin düşəndə yada”, “Gülə bilməm, gülüm, bahar sənsiz, ürəyim od tutub yanar sənsiz” və digər mahnıları eşidəndə ifaçının məhz Mirzə Babayev olduğu xatırlanır. Onun kino aktyorluğu fəaliyyətindən də söz açan müəllif, müğənninin özündən eşitdiklərini qələmə alıb.

Esmira Nəzərlinin yeni kitabında əsl peşəkar jurnalist sənətini nümayiş etdirdiyi məqamları görməmək mümkün deyil. Hər yazı başlığı söhbətin kimdən gedəcəyini dərhal oxucuya bildirir. Elə növbəti yazısı da fikrimizi təsdiq edə bilər. “Təkcə sən yoxsan, əzizim”...Bu, “səsi özündən çox yaşayan” Hüseynağa Hadıyevin oxuduğu mahnıdandır. Yazıda hər yeni fikir müğənninin ifa etdiyi mahnıların sözləri ilə başlayır ki, bu da peşəkar jurnalistə məxsus çox maraqlı yazı tərzi sayılmalıdır.

“Kim deyir ağlamır kişilər...” kitabına “Ön söz”ü “Azərbaycan” jurnalının baş redaktoru Əməkdar incəsənət xadimi İntiqam Qasımzadə - həmkarına, onun qələminin ruhuna, yaradıcılıq ovqatına bələd olan bir şəxs yazıb və Esmira xanım barədə fikirləri necə də sərrastdır:“Bir jurnalist kimi onun maraq dairəsi genişdir.Kimlərdən yazmayıb: Fikrət Qoca, Möhsün Sənani, Mirzə Babayev, Əliağa Ağayev, Lütfəli Abdullayev, Gündüz Abbasov, Rasim Balayev, Səttar Bəhlulzadə və daha kimlərdən, kimlərdən... Beləliklə, 100-dən yuxarı məqalə və müsahibə. Mən yazılardan çoxlu misallar gətirə bilərəm. Amma düşünürəm: vaxtınızı almağa dəyərmi? Yaxşı olmazmı ki, özünüz oxuyub, hər yazıdan xəbərdar olasız?! Və qiymətini də verəsiz...”

Elə mən də bu fikirdəyəm.



Həsənzadə, Tahirə.

*tarix elmləri doktoru*